# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI SƏDRİNİN ƏMRİ

**Bakı şəhəri** **№06** **20 fevral 2020-ci il**

**Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598-ci "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması" maddəsinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Auditorlar Palatasının üzərinə düşən vəzifələrin icrasına dair**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598-ci "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması" maddəsinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Auditorlar Palatasının üzərinə düşən vəzifələrin icrasına nəzarətin həyata keçirilməsini təmin etmək məqsədilə **əmr edirəm:**

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598-ci "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması" maddəsinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Auditorlar Palatasının üzərinə düşən vəzifələrin icrasına dair Prosedur Qaydalar təsdiq edilsin (əlavə olunur).

2. Keyfiyyətə nəzarət şöbəsinə (Y.Namazəliyev) tapşırılsın ki, Palatanın Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitə (V.Kərimov) ilə birlikdə bir ay müddətində "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunundan (Bundan sonra PL/TM Qanunu) irəli gələn vəzifələrin icrası, habelə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən olunmuş tələblərə Palata üzvləri tərəfindən riayət olunmasının yoxlanılması məqsədilə Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"a, (bundan sonra "Qaydalar") o cümlədən həmin "Qaydaların" "Auditor təşkilatının keyfiyyətə daxili nəzarət sisteminin yoxlanılması"na dair bölməsinə müvafiq dəyişikliklərin edilməsi barədə qərar layihəsini təqdim etsinlər.

3. Keyfiyyətə nəzarət şöbəsinə (Y.Namazəliyev) tapşırılsın ki, "Qaydalar"a müvafiq dəyişikliklər edildikdən sonra auditor xidmətinin keyfiyyətinə kənar nəzarəti həyata keçirərkən İnzibati Xətalar Məcəlləsinin 598-ci "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması" maddəsinin tələblərinin pozulması faktlarını aşkar etdiyi halda həmin məlumatları müvafiq tədbirlər görülməsi üçün Hüquqi təminat idarəsinə (M.Abbasov) təqdim etsin.

4. Hüquqi təminat idarəsinə (M.Abbasov) tapşırılsın ki, Palata üzvləri tərəfindən İnzibati Xətalar Məcəlləsinin 598-ci maddəsinin tələblərinin pozulması faktları üzrə Keyfiyyətə nəzarət şöbəsindən (Y.Namazəliyev) daxil olmuş məlumatlara əsasən müvafiq bildirişlərin, inzibati protokolların tərtib olunması və aidiyyatı məhkəmə orqanına göndərilməsini təmin etsin.

5. Hüquqi təminat idarəsinə (M.Abbasov) tapşırılsın ki, Palata üzvləri tərəfiindən PL/TM Qanununun pozulması halları barədə audit istifadəçilərindən, kütləvi informasiya vasitələrindən daxil olmuş məlumatlar, habelə audit sifarişçilərinin müraciətləri üzrə qanunla müəyyən olunmuş qaydada müvafiq araşdırmalar aparsın.

6. Hüquqi təminat idarəsinə (M.Abbasov) tapşırılsın ki, Palatanın üzvləri tərəfindən bu əmrin 3-ci bəndində göstərilən pozuntulara yol verilməsi halları aşkar edildiyi halda, görülmüş tədbirlər barədə məlumatları Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim etsin.

7. Keyfiyyətə nəzarət şöbəsinə (Y.Namazəliyev) tapşırılsın ki, Palatanın Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitə (V.Kərimov) ilə birlikdə Palata üzvlərinin aparmış olduqları auditlərin keyfiyyətinə nəzarəti həyata keçirəcək müfəttişlər tərəfindən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələrin üzvlər tərəfindən yerinə yetirilməsinin yoxlanılmasının təmin edilməsi üçün həmin müfəttişlərə müvafiq təlimlərin və seminarların keçirilməsini təşkil etsinlər.

8. Hüquqi təminat idarəsinə (M.Abbasov) tapşırılsın ki, PL/TM Qanunundan irəli gələn vəzifələrin icrası, habelə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən olunmuş tələblərə Palatanın üzvləri tərəfindən riayət olunmasının zəruriliyi ilə bağlı Palata üzvlərinin elektron poçt ünvanlarına məlumat və xəbərdarlıq məzmunlu məktubların göndərilməsi təmin edilsin.

9. Bu əmrin mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**